## FİLOLOGİYA

**UOT 82**

# XIX ƏSRİN SONUXX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ZƏNGİLAN VƏ CƏBRAYILDA YAŞAYAN ƏFŞARLARIN TOY MƏRASİMİ VƏ YA "ƏSİR DÜŞMÜŞ ƏNƏNƏ"

**Qumru ŞƏHRİYAR***

Məqalə redaksiyaya daxil olmuşdur: 25 avqust 2023; çapa qəbul edilmişdir: 2 sentyabr 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.
Received: 25th of August, 2023; accepted: 2th of September, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *əfşar toyu, ənənə, nişan, toy, mərasim*

**Giriş**

Hələ qədim dövrlərdə Azərbaycanın İranla həmsərhəd bölgələrində məskunlaşan əfşarların özlərinə məxsus adət-ənənələri var idi və onlar kəşməkəşli tarixi yol keçmələrinə baxmayaraq, bu etnoqrafik ənənələri qoruyub-saxlamağa müvəffəq olmuşlar. Amma təəssüf ki, son illərdə bu vəziyyət bir qədər dəyişib.

Əfşarların çoxluq təşkil etdiyi ərazilər uzun zaman ermənilər tərəfindən zəbt edildiyi üçün hazırda mərasimlərdə qeyd olunan ayinlərdən bəziləri icra olunmadığından unudulub. Əfşarların sıx yaşadığı Cəbrayıl və Zəngilan bölgəsindən topladığımız materiallar göstərir ki, bu adətlər az-çox yaşlı nəslin yaddaşında qalıb. XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər yaşayan bu adətlərin, təəssüf ki, çox az bir hissəsini yazıya ala bilmişik.

Qeyd edək ki, ən çox dəyişikliyə uğrayan mərasim əfşar toylarıdır.

**1. Elçilik mərasimləri**

Əfşar adətinə görə, əvvəlcə böyüklər övladlarının kiminlə ailə quracağına qərar verirlər. Bu, mütləq şərtdir. Çox nadir hallarda gənc oğlanla qız bir-birini valideynlərdən kənarda görüb bəyənirlər. Əfşar ailələri adətən valideynlərin sözü əsasında qurulur və belə ailələrin təməli də möhkəm olur. Ardınca gənclər bir-birini görüb bəyənir, əhd-peyman bağlayırlar. Bundan sonra bütün işlər valideynlərin üzərinə düşür. Oğlanın valideynləri elçi gedir. Əvvəlcə oğlan evindən bir neçə qadın qız evinə gəlib onların fikirlərini öyrənirlər. Sonra kişilər (burada qadınlar da olur) razılıq almaq üçün rəsmən elçi gəlir. Birinci gəlişdə razılıq vermək adət deyil. Qız evi sanbalını qorumaq üçün məsləhətləşmə adı ilə elçiləri geri göndərir. Həqiqətən, qızı almaq istəyən oğlanın ailəsi qızın ailəsini razı salmaq üçün dəfələrlə onun qapısına gedib-gəlir. Razılıq əldə olunanda qız atası "çayınızı şirin edin" deyir. Nəhayət, "hə" cavabı alan elçilər qızın barmağına tək qaşlı üzük taxır. Bu üzük qızın adaxlı olduğunu göstərir.

Zəngilanda yaşayan əfşarlarda (3) isə oğlan, ailəsindən iki qadını qızın evinə göndərir. Onlar da gedib qızın ailəsi ilə tanış olur, niyyətlərini bildirirlər. Bu məsələdə atanın rəyi həlledici olduğu üçün ana və ya ailənin ağbirçəyi evin böyüyünə xəbər verəcəklərini

* *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu*
*e-mail*: nevayi-qumru@rambler.ru

söyləyib vaxt istəyir. Əgər razılıq olsa, bir həftəyə kimi oğlan evinə xəbər göndərilir. Yox, əgər bu müddətdə xəbər çıxmasa, deməli, qız evi razı deyil (1). Qız evi razılığını bildirəndən sonra oğlan evindən başda ata və ana olmaqla ağsaqqallar elçiliyə gedir. Hər iki tərəfdən olan ağsaqqallar razılığa gəldikdən sonra ailə başçısı və ya ailənin ağsaqqalının buyruğu ilə süfrəyə şəkər gətirilir. Şirin çay mərasimi razılıq əlaməti sayılır. Ailə başçısının icazəsi ilə çayları şirin edirlər.

Burada maraqlı məqam odur ki, süfrəyə şirin çay gətirilmir. Gələn qonaqla razılığa gəlinib-gəlinməməsindən asılı olmayaraq, mütləq onu çay süfrəsinə qonaq edirlər. Ona görə də çaylar süfrəyə əvvəl verilir. Əgər ailə qızını bu gəncə ərə verməyə razı olsa, o zaman sonradan süfrəyə şəkər qoyulur. Bu, artıq razılıq əlaməti sayılır.

### 2. Nişan adətləri

Bundan sonra nişan hazırlıqlarına başlanılır. Nişan hazırlıqları uzun və çox təmtəraqlı olur. Burada oğlan evi iki mərhələdə hazırlıq işləri görür:

1. Qız evinin nişan xərci: burada oğlan evi ağsaqqallarla birlikdə qız evinə gəlir, nişanda çəkiləcək xərc müəyyənləşir.

2. Gəlinə gedəcək xonçaların hazırlanması: burada pal-paltardan tutmuş gəlinə veriləcək zinət əşyalarına qədər hər şey alınıb xonçalar bəzədilir. Bu xonçalarda qızın adına alınmış geyim əşyaları ilə yanaşı, mövsüm meyvələri və şirniyyatların da olması vacib sayılır.

Cəbrayılda yaşayan əfşarların (2) da adətinə əsasən, nişanın bütün xərcini oğlan evi çəkir. Nişan günü oğlan evinin ağsaqqalı nişan üzüyünü həm qızın, həm də oğlanın barmağına taxırdı. Oğlanın anası isə qızın başına qırmızı kəlağayı örtürdü. Bununla yanaşı, oğlanın qohumları qızın adına xonça bəzəyib gətirirdilər.

Adətə görə, subay qızlar nişanlı qızın üzüyünü növbə ilə taxardılar. İnanca görə, üzüyü birinci taxan əvvəl, axırıncı taxan sonda ərə gedir. Əslində topladığımız materiallardan bəlli olur ki, nişanda bu şəkildə çoxlu sayda kiçik ayinlər icra olunurdu, amma söyləyicilər o ayinləri tam xatırlaya bilmirdilər. Qırıq-qırıq məlumatlar olduğundan biz onu bu yazımıza daxil edə bilmədik.

Nişanda ortalığa böyük bir süfrə sərilir, üzərinə konfet qoyulur. Nişana gələn hər kəs o konfetdən götürüb yerinə nəmər qoyarlar. Daha yaşlı adamlar üçün isə nəlbəkidə konfet qoyaraq onların yanına gətirib nəmər alardılar.

Toya qədər bütün bayramlarda qıza bayramlıq aparılır. Qurban bayramında isə "qurbanlıq" adlandırılan qoçun alnına xına yaxılır, boynuna qırmızı rəngdə lent, lentin ucuna isə güllü yaylıqda şirniyyat bağlanırdı. Bu bağlama qurbanlıq qoçu kəsən adama çatırdı.

### 3. Toya hazırlıq adətləri

Bundan sonra oğlan evində toya tədarük görülür, qız evində isə cehiz hazırlığına başlanır: hanalar qurulur, xalçalar toxunur, yorğan-döşək salınırdı. Deyərlər ki, qıza nə qədər cehiz verirsən-ver, onun yenə də iynəsi çatışmayacaq. Müasir dövrümüzdən fərqli olaraq, o zaman qızın çox ağır cehizi olardı.

Qızın cehizində ona bir də sandıq verilirdi. Sandıq, demək olar ki, cehizin ən vacib atributlarından biri idi. Sandıqsız cehiz yarımçıq hesab olunurdu, çünki qızın bütün cühizləri sandıqlara yığılıb aparılırdı. Onların inanclarında sandıq bolluq, bərəkət rəmzi sayılır.

Bundan sonra "toy xərci" danışılır. Adətə görə, oğlan evi qızın toyunun bütün xərcini çəkir, onlara mal-heyvan, düyü, un, yağ, çay və s. alıb gətirir. Bu gün bu adəti başlıq və ya süd pulu ilə qarışdırırlar. Amma bu, tamamilə başqa bir ənənədir. Bu ənənə qız evinin cehiz hazırlıqlarını nəzərə alaraq onlara yük düşməməsi məqsədini güdür.

Toyluq ayın-oyunu qız evinə bir nəfərlə göndərirlər və qız evi həmin şəxsə də hədiyyə verir.

Toydan bir neçə gün əvvəl qızın cehizi oğlan evinə göndərilirdi. Bütün cehizə qırmızı lentin bağlanması vacibdir. Zəngilanda bu lenti seyid bağlayırdı. Oğlan evində cehizlərin qırmızı lentləri mütləq açılmalıdır. Lentlərin qayçı ilə kəsilməsi yasaqdır. Onların sadəcə düyünləri açılmalıdır. Cəbrayıl əfşarları qırmızı lenti bir ay, bəzən ilk uşaq dünyaya gələnə qədər əşyaların üstündə saxlayırlar.

Oğlanın evində bəy otağı hazırlanır. Bəyin anası isə oğlana bəy döşəyi adlanan bir yataq dəsti verir. Toy gününə qədər bəyin otağına kimsə buraxılmır. Qızın çilçırağı asılıb işığı yandırılır, digər əşyaları yerbəyer olunur.

### 4. Xınayaxdı mərasimi

Əvvəllər bir qayda olaraq, cümə günü "xınayaxdı" mərasimi, şənbə günü qız toyu, bazar günü isə oğlan toyu olurdu.

Xınayaxdı mərasimində xına ilə birlikdə gəlinin adına alınan bütün paltarları və əşyaları bağlamaya (sandığa) yığıb qızın evinə gətirirlər. Bunun yanında ev adamlarına da hədiyyələr alınır və mütləq xonçaların arasında şirniyyat da gətirilir. Qız evində bu bağlamaları alan şəxs gətirənə hədiyyə verir.

"Xınayaxdı" mərasimində xına oğlan evində hazırlanır. Qız evinə gətirilərək əvvəlcə gəlinin əlinə, ayağına, saçına qoyulur, sonra isə ev adamları xına yaxır. Yuxarıda qeyd etdiyimiz kimi, burada da qədim zamanlarda müxtəlif ayinlər icra olunurdu, amma təəssüf ki, o ayinlər də sıradan çıxıb və ya unudulub. Onların çox az bir hissəsini yazıya ala bilmişik.

Xına mərasimində subay qızlar üzərlərindəki zinət əşyalarını çıxarıb xınanın içərisinə atırlar. Gəlin əlini xınanın içərisində gəzdirib zinət əşyalarını bir-bir oradan çıxarır. Birinci çıxan ilk, sonuncu çıxan isə sonda ərə gedir. Elə hal olur ki, gəlin xınanın içərisində kiminsə zinət əşyasını tapa bilmir, bu, o deməkdir ki, o bu il ailə qurmayacaq. Bundan sonra gəlinin əlinə-ayağına xına yaxırlar.

Qalan xınanı oğlan adamları geri qaytarır, bəyin əlinə yaxırlar. Xınanı gətirənə və gəlinə xına yaxana qız adamları hədiyyə verirlər.

### 5. Toy adətləri

Yuxarıda da qeyd etdiyimiz kimi, oğlan evində gəlin otağı bəzədilir. Gəlin otağını qız evindən olan bir qadın bəzəyir. Bu qadına oğlanın anası "xələt" verir.

Sonra "paltarbiçdi" olur. Bu mərasimdə yalnız qadınlar iştirak edir. Eyni zamanda mərasim "qız toyu" hesab edilir. Bəzən "qırım" da deyilən bu məclisdə iştirak edən hər adama hədiyyə verilir. "Paltarbiçdi" deyilən mərasimdə isə oğlan adamları qız evinə xonça gətirirlər. Bu xonçalara sabun və ayaqqabı qoymaq olmaz. İnanca görə, bunlar yeni qurulmuş ailəyə sıxıntı və dava-dalaş gətirər. Hətta XIX əsrin sonlarına qədər gəlin bəyin evinə ayaqyalın gedərdi. Burada da qız özü ilə darlıq gətirməsin deyə ona ayaqqabı geyindirməzdilər.

Xonçalarla birlikdə güzgünün, şamın, nabatın və kəllə qəndin olması vacib sayılır: yeni qurulmuş ailənin ilk övladı dünyaya gələndə nabatı və kəllə qəndi doğrayıb 7 qapıya şirinlik paylayırlar. Qız evindən xonça gətirən hər kəsə "şirinlik" deyilən hədiyyə verilir. Xonçada qıza gətirilən əşyalar toya gələnlərin qarşısında nümayiş etdirilir. Elə həmin gün gəlini hamama aparırlar. Oğlan evində isə bu mərasimə "bəy hamamı" deyirlər. Burada bir haşiyə çıxaraq bildirmək istəyərdik ki, qədimdə gəlinləri hamamda bəyənərdilər. Hamam mərasimi xüsusi bir ritual şəklində icra olunur. Çünki bu gəlinin hamamında başqa bir qızın da bəxti açılır.

Ertəsi gün, yəni bazar günü oğlanın evində mağar qurulur. Mağarın içərisi xalı-

xalça ilə bəzədilir. Günortaya kimi qadın məclisi olur. Burada da toya gələn hər kəsə hədiyyə paylanılır. Adətən, hədiyyələr qonaqların sayından çox olur.

Günortadan sonra gəlini gətirmək üçün yola çıxılır. Oğlan adamları bir xonçada gəlinlik, güzgü, gəlinin belinə bağlamaq üçün qırmızı şamaxı (XIX əsrin sonu – XX əsrin əvvəllərində əfşarların sıx yaşadığı bölgələrdə qırmızı lenti qırmızı Şamaxı – kələğayı əvəz edirdi) və gəlinə veriləcək zinət əşyaları gətirirlər.

Haqqında danışdığımız bölgələrdə yaşayan əfşarların, demək olar ki, bütün mərasimlərində şamaxı xüsusi önəm daşıyır. Şamaxı, bir növ, onların məişətinə sirayət edib. Hətta bir ailənin uzaq səfərdə ikən dünyasını dəyişən əzizi olarsa, ona xəbər vermək üçün qara şamaxı gətirirlər. Bir ailənin başqa bir ailənin gənc qızında gözü olarsa, ona xına rəngində şamaxı hədiyyə gətirib söz açırlar. Gəlinin barmağına üzük taxanda çiyninə çəhrayı şamaxı salırlar. Gəlin atasının evindən çıxaranda başına qırmızı şamaxı atırlar və s. Göründüyü kimi, şamaxı əfşarlar arasında mərasim ünsürü olaraq çox önəmli yerə sahibdir.

Oğlan evi gəlini aparmağa gələndə qız evi oynaya-oynaya onları qarşılayır. Buna Zəngilan rayonunda xüsusi önəm verirlər, çünki bu, qız evinin oğlan adamlarına hörməti hesab olunur.

Adətə görə, bəy özü ilə qız evinə çalğıçı – qara zurna, balaban və nağara gətirir. Oğlanın adamları burada qızın evindən qiymətli bir şey "oğurlayıb" bəyə iki qat baha qiymətə satır. XIX əsrin sonlarında bəyin dostları qızın həyətindən xoruz oğurlayırdı. Bəy də həmin andaca istənilən ən yüksək məbləği ödəyib onu almalı idi. Əks təqdirdə dostları "qaynananın xoruzu başqa həyətdə banlayır" deyib onu məzəmmət edirdilər.

Burada bəylə gəlin üçün bəyin anası üzərlik yandırır və aşağıdakı nəğməni oxuyur:

*Üzərriksən, havasan,*
*Min bir dərdə davasan.*
*Balalarıma göz vıranın*
*Gözdərini ovasan.*
*A qara göz, mavi göz,*
*A ala göz, yaşıl göz,*
*A pis niyyət, bəd niyyət*
*A qara ruh, a bəd ruh*
*Balalarımda nəfsin varsa,*
*Qoy gözdərin ovulsun,*
*Pis niyyətin öz başında çartdasın.*

Sonra gəlin sol əlinin arxasını başının üstünə qoyur, bəyin atası isə "süd pulu" adlanan müəyyən məbləğdə pulu və ya qızın anası üçün nəzərdə tutulan zinət əşyasını gəlinin ovcuna qoyur və xeyir-duasını verir. Gəlinin anası bu pulu və ya hədiyyəni götürür və öz xeyir-duasını verir.

Bütün bu mərasimlər sona yetdikdən sonra bəyin qardaşı (əgər qardaşı yoxdursa, bəyin yaxın qohumu) gəlinin belinə qırmızı şamaxı bağlayırdı. Şamaxının bir ucunu buraxmadan (buraxmaq pis əlamət sayılır) 3 dəfə gəlinin başından atıb, ayağından keçirərək:

*Anam, bacım, qız gəlin,*
*Əli, ayağı düz gəlin.*
*Yeddi oğul isdərəm,*
*Bircə dənə qız, gəlin,*

– deyib gəlinin belini bağlayırdılar. Gəlinin belini bağlayan oğlanın başına xəlvətcə un tökürdülər. İnanca görə, bu ayinin icra olunmasının səbəbi qızın getdiyi evin ruzili, bərəkətli olmasıdır.

Atanın xeyir-duasını almamış qız gəlin köçməzdi. Qız evində çıraq yandırır, evin ortasına qoyurdular. Qızın atası (əgər atası yoxdursa, bu işi əmisi icra edirdi) əlindən tutub 3 dəfə çırağın başına fırladır və sonra xeyir-duasını verirdi. Sonra bu çıraq gəlinlə birlikdə bəyin evinə göndərilir. Burada da ən vacib məqam odur ki, həmin çırağı qətiyyən söndürmək olmaz. O, oğlan evində, bəy otağında sabaha qədər yanmalıdır.

Zəngilan əfşarları arasında "gəlinin çırağın başına dolanması" adəti yoxdur. Orada qız evdən yola düşəndə ana öz evində bir çıraq yandırır və qıza verir. Burada da çırağı söndürmək olmaz, pis əlamət sayılır. Əgər çıraq yolda sönsə, geri qayıdıb qızın evində çırağı yenidən yandırıb aparırdılar. Çıraq ilə birlikdə gəlin köçən gün qıza oğullu-uşaqlı olsun deyə küt düşmüş və ya yumurtlayan toyuq da verir. Yuxarıda da qeyd etdiyimiz kimi, XIX əsrin sonu-XX əvvəllərində gəlini ayaqyalın ər evinə köçürürdülər. Gəlin atası evindən ər evinə ayaqyalın gedərmiş. "Ayaqqabı darlıqdır" deyə gəlin ər evinə gələnə qədər ona ayaqqabı almazlar. Heç xonçaya da ayaqqabı qoymazlar (1).

Sonra bəylə gəlin əl-ələ tutur və onların başı üzərində çörək kəsilir, birlikdə Quranın altından keçirlər. Gəlin ata-baba yurdundan ayrılanda ardınca su atırlar. "Su aydınlıqdır" deyirlər. Uzaq səfərə çıxanların, çətin iş arxasınca gedənlərin, gəlin köçənlərin arxasınca su atırlar ki, getdikləri yer uğurlu olsun. Gəlin yola düşəndə oğlanın adamları:

*Mal almağa gəlmişik,*
*Şal almağa gəlmişik,*
*Qız evinin tər gülün*
*Aparmağa gəlmişik.*

və ya:

*Qız evindən tər gülü*
*Qoparmağa gəlmişik,*

– deyə oxuyarlar.

Gəlin evdən çıxanda əlinə bir ovuc buğda və ya düyü götürür, subay qızların adlarını çəkə-çəkə arxısınca yerə tökürdü. Bu zaman subay qızların gəlinin ardınca ərə gedəcəklərinə inanılır. O illərdə gəlini atla aparırdılar, atın yedəyini isə bəyin yaxınlarından kimsə tuturdu. Sonra bütün cavanlar yığışıb at yarışı keçirirdilər.

Gəlin təzə evə gəldikdə ayağının altında qurban kəsirlər. Qurban kəsilmiş qoyunun qanından alnına və ayağına vururlar. Təzə evinin qapısında gəlinin ayağının altına üzü üstə bir boşqab qoyurlar. Gəlin onu ayağı ilə sındırır. Bunun mənasını Cəbrayılda gəlinin ayağı sayalı, qədəmləri nurlu, bərəkətli olması ilə izah edirlər. Zəngilanda isə bu hadisəni gəlin ev əyəsinə "bu gündən bu evin sahibi mənəm" deyir" şəklində yozurlar.

Həyətin kandarından evə qədər kənarda uzun bir süfrə sərirlər, onun üzərinə gəlinin ayağı ruzili, bərəkətli olsun deyə addımladıqca çörək düzürlər. Gəlin keçdikdən sonra ardınca çörəyi yığırlar. İçəri girdikdən sonra gəlin oturmaz. Qaynanası xələt verir, razılaşmır, qaynatası xələt boyun olur (söz verir), razılaşır və oturur. Bu, "diz dirəyi" mərasimi adlanır. Gəlin oturandan sonra qucağına bir oğlan uşağı qoyurlar.

Mağarda isə kişi məclisi qurulur. Bu məclisi toybaşı deyilən şəxs idarə edir. Toy "bəy tərifi" ilə başlayır. Bəy tərifində uzun-uzadı bütün qohumların adları çəkilir və

nəmər vermələri üçün məclisə dəvət olunur. Bəy bu təriflərdən sonra rəqs etmək üçün mağara gəlir. "Bəy öz toyunda oynayarsa, bolluq olar" deyərlər. "Bəy havası" çalınır və bəy oynayır. Zəngilanda gəlin də, bəy də öz toyunda oynayır. Bununla bərabər, qeyd edək ki, Qarabağın, eləcə də Azərbaycanın bir çox yerlərində gəlin öz toyunda oynamırdı.

Bütün Azərbaycan toyları kimi, əfşarların toy süfrəsi çox zəngin olur. Toya gələn qonaqların hər birinin ev yiyəsindən razı getməsi üçün toyun sahibi əlindən gələni əsirgəmir. Bir neçə növ isti qazan yeməkləri hazırlansa da, aşpaz toy başlayandan sonra da yemək paylamaqdan imtina edir. Yüz xahiş-minnət etsələr də, aşpaz razılığa gəlmir. Oğlanın əmisi gəlir, nəmər verir, aşpaz yemək verməkdən imtina edir, dayısı gəlir, aşpaz nəmərini alır, yenə imtan edir, elə ki, bəyin atası gəlib nəmər verdi, o zaman aşpaz qazanın ağzını açıb yeməkləri paylayır. Bu, "qazan ağzı açdı" mərasimidir. Ocağın qırağında işləyən hər kəsə nəmər verilərdi.

Ötən əsrin sonlarına qədər Qarabağda yaşayan əfşarlarda toy mərasimi 3 gün, 3 gecə davam edirdi.

Toydan sonra gəlin üç gün gözə görünməz. Bu üç gün "gərdək" adlanır. Üçüncü gün "üzə çıxdı" mərasimi keçirilir. Bu məclisə qız evi ya hazır yemək, ya da yemək bişirmək üçün ərzaq gətirir. Ümumiyyətlə, bu məclisdə süfrədə verilən bütün təamları qız evi gətirir. Yenə də "nişan" mərasimində olduğu kimi nəlbəkidə şirniyyat paylanır, pul və ya hədiyyə yığılır.

Toydan bir müddət sonra (bir aydan tez olmamaq şərti ilə) qız evi oğlan evini qonaq çağırır. Qızın ailəsi gənc ailəyə hədiyyə verir. Bu mərasim "ayaq açdı" adlanır. Bundan sonra oğlan evi eyni mərasimi icra edərək "ayaq açdı" edir, qızın ailəsini qonaq çağırır. Bu mərasim ardıcıl olaraq qızın və oğlanın qohumları arasında da icra olunur, yeni qurulan gənc ailəyə hədiyyələr verilir.

**Nəticə**

Çox böyük təəssüf hissi ilə qeyd edək ki, XIX əsrin sonu – XX əsrin təxminən 80-ci illərinə qədər yaşayan bu adətlərin böyük bir hissəsi bu gün əfşar toylarında artıq icra olunmur. Qaçqın ömrü onların günlük həyatlarında çox şeyləri dəyişdi. İcra etdikləri mərasimlər, o cümlədən toy adətləri qaçqın düşdükdən sonra məskunlaşdıqları əraziyə uyğunlaşdı və beləcə, öz ənənələrinin bir qismini yavaş-yavaş unutdurdu.

Bu gün bu ənənələrin daşıyıcıları, demək olar ki, yoxdur. Yaddaşında qoruyub-saxlayan ağsaqqal və ağbirçəklərimizin də sayı getdikcə azalır. Müasir texnologiyalar da o ənənələrimizi tamamilə parçalayır, "müasir" cildə salır. Məsələn, bu gün artıq şamaxı, toyda icra olunan "oğurluq", yerdə süfrənin üzərinə çörək düzülməsi, qız anasının qızına yanan çıraq verməsi, "qazan ağzı açdı" və s. aktlar icra olunmur. Belə gözəl ənənələr, təəssüf ki, yerini daha parıltılı, səs-küylü və daha qarmaqarışıq toylara verib.

## ƏDƏBİYYAT


1. Şəhriyar Q. Zəngilanda toy adətləri və ya əsir düşmüş ənənə // "Kredo" qəzeti, 2007, sentyabr.

***Söyləyicilər:***

2. Cəbrayılda toy adəti ilə bağlı materialları Cəbrayıl rayon sakini 52 yaşlı evdar qadın Əliyeva Adilə Məhəmməd qızından aldıq.
3. Zəngilanda toy adəti ilə bağlı materialları Zəngilan rayon sakini 70 yaşlı təqaüdçü Hətəmova Hafizə Qubad qızından aldıq.

***Резюме***

***Гумру Шахрияр***

***Свадьба афшаров, проживших в Зангилане и Джебраиле, в конце XIX-начале XX века***

Территория Азербайджана с древних времен была исторической обителью афшаров, а их культура и традиции сыграли неоценимую роль в развитии Азербайджана. У них свои языковые стили, фонетические законы, народная культура, система верований.

30 лет жизни беженцев, конечно, оставили неизгладимый след в их судьбе, как и у всех. Они прожили 30 лет в районах, где временно поселились. К сожалению, их традиции растворились и ассимилировались среди традиций тех регионов. И таким образом большая часть богатых традиций, фольклорных образцов и этнографических знаний, доживших до конца XIX века и начала XX века, не была зафиксирована. На самом деле так и должно быть, потому что люди, ставшие беженцами, не хотят так сильно отличаться от местного населения в районах, где они заселяются. Это привело к подоплеке любой церемонии, которую они считают традиционной и выполняют в виде ритуала.

Материалы, которые мы зафиксировали и представили в этой статье, лишь малая часть тех примеров, которые остались в памяти старшего поколения. Рассказчики текста испытывали большое волнение, описывая эту этнографическую традицию, то есть свадьбу, оставшуюся в их памяти.

В данном исследовании мы коснемся интересных моментов, которые мы нигде не нашли в системе верований, связанных со свадебной традицией афшаров, проживающих в Азербайджане. Поэтому нам пришлось ограничить сбор Зангиланским и Джебраильским районами.

***Ключевые слова:*** *Афшарская свадьба, традиция, помолвка, свадьба, церемония*

***Summary***

***Gumru Shahriyar***

***The Wedding of the Afshars who lived In Zangilan and Jebrail at the End of the 19th-Beginning of the 20th Century***

The territory of Azerbaijan has been the historical home of the Afshars since ancient times, and their culture and traditions have played an invaluable role in the development of Azerbaijan. They have their own language styles, phonetic laws, folk culture, belief system.

30 years of life of refugees, of course, left an indelible mark on their fate, like everyone else. They lived for 30 years in the areas where they temporarily settled. Unfortunately, their traditions have been dissolved and assimilated among the traditions of those regions. Unfortunately, most of the rich traditions, folklore samples and ethnographic knowledge that survived until the end of the XIX-th century and the beginning of the XX-th century were not recorded. İn fact, it should be so, because people who become refugees do not want to be so different from the local population in the areas where they settle. This led to the underpinning of any ceremony that they consider traditional and perform as a ritual.

The materials that we recorded and presented in this article are only a small part of those examples that have remained in the memory of the older generation. The narrators of the text experienced great excitement when describing this ethnographic tradition, that is, the wedding, which remained in their memory.

In this study, we will touch upon interesting points that we have not found anywhere in the belief system associated with the wedding tradition of the Afshars living in Azerbaijan. Therefore, we had to limit the collection to the Zangilan and Jabrayil regions.

***Key words:*** *Afshar wedding, tradition, engagement, wedding, ceremony*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.